## *Sözlərə və üz-gözə süzülən işıqlar*

***- Sevda xanım, əgər məndən soruşsaydılar ki, Mirzə İbrahimov kimdir? Yəqin ki, mən sevdiyim yazıçı, böyük ictimai xadim, gözəl, unudulmaz,insane deyərdim. Amma siz bizim hamımızdanfərqli olaraq Mirzə İbrahimov Sevda xanım üçün kimdir?***

- Çox gözəl sualdır və həm də bütün dolğunluğu ilə buna cavab vermək bəlkə də çətindir. Necə deyim sizə, zaman keçdikcə onun yeri həyatımızın bütün nöqtələrinə görünür və deyirlər ki, ataya, onun nəvazişinə, qayğısına daha çox möhtacdır. Nədənsə bu fikirlə razılaşa bilmirəm. Çünki öz həyatımdan görürəm ki, hər saniyəmdə ona çox böyük ehtiyacım var. Bizim atamızın elə işıqlı daxili aləmi var idi ki......Siz bilirsiniz ki, onun öz uşaqlığı çox ağır keçib, Yetimliyin, kasıblığın hər cür əzabını çəkib. Ana-bacı nəvazişi İbrahimovun həyatda bexti onda gətirrnişdi ki, Sara xanım kimi bir həyat yoldaşı var idi. Anam atamın təkcə ömür-gün dostu deyildi. O, atanmın bütün qayğılarını öz üzərinə götürmüşdü.

**HAŞİYƏ:** Sara xanım Azərbaycanın görkəmli tarzəni Qurban Pirimovun qızıdır. O, Azərbaycan Dövlət Konservatoriyasının fortopiano şöbəsini bitirən ilk azərbaycanlı qadın idi. Olduqca gözəl musiqiçi olan Sara Pirimova ailə qurana qədər işləyirdi. Gözəkl gələcəyi var idi. Lakin başqabir məziyyəti onu yalnız ailəsinin pərvanəsi olmağa çəkdi. Bütün istedad və qabiliyyətini ancaq analıq sənətinə həsr etdi. Tanıyanlar təsdiqləyirlər ki, Sara xanım çox həssas və duyğulu bir qadın olub. O, Mirzə İbrahimovla ailə qurandan hiss edib ki, ömür-gün dostunun qayğılarını çəkmək üçün başqa bir işin arxasınca gedə bilməyəcək.

- ***Atanızın ən yaxın dostları.........***

- Onun doğma insanlarından Üzeyir bəy olub. Üzeyr Hacıbəyovun adı deyiləndə işıqlanırdı. O, bəy haqqında məhəbbətlə, sevgi ilə danışardı. Dahi bəstəkarımızın vəfatı atamı çox sarsıtmışdı. O, müdhiş gündən bir az əvvəl Ramazan Xəlilov atama zəng etdi ki, Üzeyir səni görmək istəyir. Onlar çox atlarla bir yerdə söhbətləşməkdən doymazdılar. Ona görə də Üzeyir bəyin musiqisi bizim evdə tez-tez səslənərdi. Doğrudur, atam təkcə yazıçı deyildi, O, müxtəlif vəzifələrdə çalışmışdı, siyasətlə məşğul olmuşdu. Amma evdə tamam başqa bir ab-hava olardı. Ona görə də mən o günləri "həyatımızın işığı" adlandırıram. Atam evlidirsə, deməli, o gün Nizaminin, Füzulinin qəzəlləri eşidiləcək, Üzeyirin musiqisi səslənəcək. Yadımdadır, hər şənbə Qurban babam

bizə gələrdi. Atam hamımızı yığardı ki, babanıza qulaq asım. Sizə deyim ki, aləminə cəlb eləyən, bağlayan məhz atam olmuşdu. Yayın bir ayını Şuşada keçirən babam Qurban Pirimov iki ayı Şüvəlanda bizimlə olardı. Atamın təkidi ilə mən babamdan muğamın sirlərini öyrənməyə çalışırdım. Atam babamın çaldığı "Çahargah"ı çox sevərdi. O, övladlarının hərtərəfli inkişafına çalışırdı. Bizə qədim yunan mifologiyasından danışardı. Onun bir ifadəsi var idi. “Sənətdən gözəl şey yoxdur”. O, bütün səadəti yaradıcılıqda görürdü. Atamın mənə yazdığı məktubları oxusanız, edəcəksiniz. O, doğurdan da adi insan deyildi. Ondakı ensklopedik bilik ağlasığmaz idi. Siz atamın dostlarını soruşdunuz. Üzeyir bəyi dedim. Səməd Vurğun, Rəsul Rza, Nigar Rəfıbəyli, Sabit Rəhman, Məmməd Rahim...

Hərdən atamın vaxtilə yazdığı məktubları vərəqləyirəm. Orada elə sətirlərə, kəlmələrə rast gəlirəm ki...Yaradıcılığa, sənətə vurğunluq bu insanda hər şeydən yüksək idi. Onun çox mülayim təbiəti var idi. Bizimlə elə mehriban, yumşaq rəftar edərdi ki, bütün hərəkətləri, münasibətləri təkrar olunmazdı. O, təkcə bizi yox, ümumiyyətlə, uşaqları çox sevərdi. Yadımdaydı, biz bağda idik. Bir südçünün uşağı hərdən bizə gələrdi. Atam onunla bir dil tapardı ki, indiyəcən onlar Mirzə ibrahimovu doğma ataları kimi sevərək xatırlayırlar. Yadımdadır, biz onu torpağa tapşıranda arxamda durmuş bir qadın qəhərlə rusca dedi: "Umer naş papa". Mən soruşdum ki, siz kimsiniz? Cavab verdi ki, biz uşaq evində böyümüşük. O, bizim hamımızın ata- sı idi. Anam mənə danışmışdı ki, Mirzə ibrahimov Ali Sovetin rə- yasət heyətinin sədri olanda öz maaşını uşaq evlərinə sərf edər- miş. Deyirmiş ki, kitablarımın qonorarı mənim ailəmə bəs edər.

- ***Yəqin ki, onun belə mərhəmət sahibi olmağı öz taleyindən irəli gəlirdi?***

- Bəli, bəli. Atam o qədər sadə və gözütox adam idi ki, ömrü boyu heç nədə gözü olmadı. Müxtəlif vəzifələrdə çalışmışdı. Bizi bir dəfə də olsun Zuğulbadakı hökumət bağına aparmadı. Deyirdi ki, bizim Şüvalanda öz bağımız var. Çox qeyri-adi insani keyfıyyətlərə malik idi. Zaman keçdikcə mən onun yoxluğunu özümə yaxın qoya bilmirəm. Mənə hərdən elə gəlir ki, başımın üstündədir.

- ***Məşum 37-ci ilin repressiyalarının qılıncı sağa-sola fırlananda Mirzə İbrahimov bu bəladan necə sıyrılıb?***

- Mənə elə gəlir ki, bu, bir təsadüfdür. Hər atılan güllə hədefə dəymir ki?! Anam söyləyərdi ki, hər səhər işə gedəndə atam evdə halallaşarmış ki, bəlkə bir də qayıtmadı. Çünki Bağırovun "iclasları axşam olarmış. Anam da o gecələri yatmazmış. O zaman Səməd Vurğun və Üzeyir Hacıbəyov haqqında Bağırov məsələ qaldırmışdı ki, onlar xalq düşmənləridir. Azərbaycan KP MK-nın Bürosunda bu məsələ müzakirə ediləndə Bağırov var-gəl edə-edə soruşub:

“Mənimlə razısınızmı ki, onlar xalq düşmənləridir?” Heç kəs səsini çıxartmır. Onda Mirzə İbrahimov ayağa duraraq deyib: “Mən razı deyiləm. “Koroğlu” operasn yazan bəstəkar. “Vaqif dramının müəllifi necə xalq düşməni ola bilər?” Bağırov qəzəblə atamın sözünü kəsərək “əyləş sən də onların tayısan”- deyib. Bilirsən, indi qəribə “təftişçilər” peyda olub. Niyə filankəs sağ qalıb, filankəs öldürulüb? Məgər bizə xoş olardı ki, Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Sabit Rəhman, Süleyman Rəhimov... kimi şəxsiyyətlər də mütləq güllələnəydilər? Görün, ədəbiyyatımız, mədəniyyətimiz bu şəxsiyyətlərin hesabına nə qədər zənginləşib, inkişaf edib. Son günlər mən atamla bağlı müəyyən materiallar toplayıram. Vaxtilə Dövlət Təhlükəsizlik Nazirliyində işləyən bir nəfər Cavidlə bağlı arxivi araşdırarkən görüb ki, 556 nömrəli işdə Mirzə İbrahimovla erməni müstəntiqi Poqosyanın mühakiməsi var. İndi mən o işin tədqiqi ilə məşğulam. Atam təkcə 37-ci illərdə deyil, sonrakı dövrlərdə də çox təzyiqlərə, hücumlara məruz qalıb. Gah onu danlayırdılar ki, Cəlil Məmmədquluzadə haqqında monoqrafıya yazıb, gah tikanlayırdılar ki, Heydər Hüseynovla yaxın olub, gah da irad tuturdular ki, o, Cənubdandır. Yaxşı ki, o, səbrlə, həm də səhhətinin hesabına bu bəlalara dözərək yaşadı və yaratdı.

***- Mirzə ibrahimovun cəsarətii, hünərli insan olduğu barədə kifayət dərəcədə faktlar var. Bunlardan biii də ana dilimizlə bağlı onun apardığı miibarizədir. O, əgər bir tərəfdən "Sovet hakimiyyəti dilimizin yiiksəlişinə təkan verdi" yazırdısa...***

- Qoyun fikrinizi atamdan gətirdiyim sitatla tamamlayım. Mirzə İbrahimov 1943-cü ildə yazırdı: "Mübaliğəsiz demək olar ki, bir ildə idarələr arasında yazışma, bəlkə də ən çox oxunan kitabın tirajından az kağız aparmır və minlərlə adamın əlindən gəlib keçir. Bu kağızlarda tamamilə başqa bir dil, heç bir qanun-qaydaya sığmayan bir dil hakim olarsa, bunun nəticəsi çox acınacaqlı ola bilər. Yəni ədəbi dil ümumun dili olmaz, savadsız və öz köklərindən ayrılmış bir dil kütləlari öz pis təsiri altına ala bilər". Təbii ki, yazıçı "öz köklərindən ayrılmış dil" dedikdə dövrün qadağalarına işarə vururmuş. Öz millətinə çatdırırmış ki, yazışmanı başqa dildə aparmağın bizə ziyanı dəyə hilar. Bilirsiniz, Flora xanım, atam sanki öz həyatını dilimizə qurban demişdi. Heç nədən çəkinmirdi. Alt Sovetdə işlədiyi vaxt o dil məsələsini yenidan qaldıraraq Azərbaycan dilini dövlət dili elan etdi. İlahi, bundan sonra ona nə qədər ittihamlar irəli sürüldü. Onu əzmək, sındırmaq istəyənlər də oldu. Lakin atamın iradəsi, dəyanəti. mərdliyi, cəsarəti və xalqın ona olan böyük məhəbbəti Mirzə İbrahimovu öz əqidəsində, öz prinsiplərində daha da möhkəmlətdi. Xatirimdədir ki, o ağır zamanlarda ona adi insanlar zəng edər atama öz məhəbbət və hörmətlərini bildirərdilər.

***- Sevda xanım, bilmirəm sizin fikriniz necədir, mənə elə gəlib ki, "Böyük dayaq"dakı Rüstəm kişi məhz elə böyüklük kinoda rəhmətlik Ələsgər Ələkbərovun ifasında daha möhtəşəm alınıb.***

- Mən həmin romanındakı məlum bir statı təkrar etmək istəyirəm. “Ey mənim xalqım, ey mənim ümidim və pənahım!Ürəyimin istiliyi səndəndir, fikrim işığını səndən alırTiidim və pənahım! ürəyimin istiliyi səndəndir, fıkrim işığını səndən alır, həyatımm nəşə və sevincinə bais sənsən! Həyat yolunun sürüşkən döngələrində qolumdan tutan, məni yıxılmağa qoymayan sən olmusan. Amansız qorxu başımın üstünü alaraq məni ağır fikirlərə saldığı zaman, xoş günün dönük dostları, zəif və qorxaq yoldaşlar məndən üz döndərdiyi zaman yeganə dayağım sən olmusan. O zaman ki, qaranlıq içimə kölgə salmağa başlayıb, tanhalıq duyğusu ürəyimi qurd kimi yeməyə başlayıb, onda sənin munis, mehriban, müqəddəs səsini eşitmişəm. Bu səs məni həyata bağlamış, yaşamağa, mübarizə etməyə, çirkabları aradan qadırmağa ruhlandırmışdı. Qoluma qüvvət verən, iradami möhkəmlədən bu səs sənin səsindir, ey mənim hər şeydən əziz, hər şeydən gözəl, hər şeydən yüksək, hər şeydən nəcib və mərhəmətli xalqım!". Bu sözlər Mirzə ibrahimov şəxsiyyətini, onun mənəviyyatını çox parlaq şəkildə əks etdirir. Ömrünün son ilində o, bizdə olanda səsi yazılmış valı səsləndirdik. Bu məlum sitat səsləndikcə mən hiss etdim ki, o, necə kövrəldi, gözləri doldu.

***- Mirzə İbrahimovun iizünün cizgilərində, gözlərində həmişə bir qəm var idi. Hətta ürəkdən güləndə də belə gözlərindəki kədər çəkilməzdi.***

- Bilirsiniz, atamın içində çox ağır bir dərd lövbər salmışdı. O, Təbriz yaxınlığında - Sərabda doğulmuşdu. Ömrü boyu o həsrət onun ürəyində yaşadı. Anam dünyasını dəyişəndən sonra atam elə bil ki, təzədən yetimləşdi. Biz üç övlad və gəlin nə qədər onu sevsək də, anamızı əvəz edə bilmədik. Bir tərəfdən də xalqımızın başına gələn müsibətlər, Qarabağ münaqişəsi, 90-cı ilin yanvarı, Qarakənd səmasındakı vertolyot qəzası onun səhhətinə çox ağır təsir etdi. 0, ağırxəstə ikən gecələr yanında qalırdım. Bir də görürdüm bərkdən deyir: "Kəsin bu qırğını, Qarabağ bizimdir". Hanışdırırdım, ata, nə deyirsən? Astaca göz qapaqlarını qaldıraraq "sən yat qızım, mənə qulaq asma" deyərdi. Son günlərdə iki cümlə eşitdim: " Sara, Sara, sən mənim işığımsan" və "aparın məni atamın-anamın yanına. Odey, bizim evimiz”. Mənə elə gəlirdi ki, atamın cismi bizimlə idi.

- Təəssüf ki, səhhəti son illər ona imkan vermədi ki, müntəzəm işləsin. Bu səbəbdən də “Mayak” romanı bitməyib. "Füzuli" əsərindən müəyyən hissələri bizə böyük məhəbbətlə oxuyardı. tamamlaya bilmədi. "Pərvanə”sinin ikinci

hissəsi yarımçıq qaldı. Atam bütün əsərlərini ərəb əlifbası ilə yazardı. Ona görə də bu əlyazmalan biz dəqiq araşdıra bilmirik. Gündəlikləri var. Bir sözlə, arxivində material çoxdur Mən onu da bilirdim ki, o son illərdə bir dram əsəri üzərində fikrində idi.

- ***Ümumiyyətlə, atanızm yubileyi iiə bağlı keçirilən tədbirlər sizi qane edirmi?***

- Öncədən minnətdaram ki, ölkə rəhbəri Mirzə İbrahimovun xətrini əziz tutaraq, qiymətərək onun yubileyinin keçirilməsi barədə farman imzaladı. Elə bu, dövlət tərəfındən xalq yazıçısına göstərilən diqqət demək idi. Bu fərmana ilk reaksiyanı da Yazıçılar Birliyi verdi. Bir gün axşam Anar mənə zəng etdi ki, Natavan adına klubda Mirzə İbrahimovun xatirəsi yad ediləcək. Getdim. Yazıçı dostları, onu sevənlər atam barasində çox gözəl danışdılar. Sonra da mən mətbuat və televiziya işçilərindən çox razıyam. Onlar müntəzəm olaraq Mirzə İbrahimovla bağlı yazılar, verilişlər hazırlayırlar.

- ***Bəs teatrlar, onlar Mirzə ibrahimovun əsərlərinə müraciət etdilərmi?.......***

- ***Axı çoxunun yadından çıxmayıb ki, Mirzə ibrahimovun "Həyat', "Madrid", "Məhəbbət", "Yaxşı adam", "Kəndçi qızı" kimi əsərləri uzun müddət teatrlanmızın sahnəsində uğurla oynanılıb. Rəhmətlik Vəfa Fətullayevanın "Kəndçi qızı"nda yaratdığı baş rol Bənövşə necə möhtəşəm və maraqlı alınmışdı. Mətbuat səhifələrində bu barədə miisbət rəylər dərc edilmişdi.***

- Amma nə yaxşı olardı ki, atamın bir əsəri səhnə taleyini yaşayaydı. Çünki bu, onun son arzularından biri icli.

- ***Mirzə İbrahimovun nəsrdili çoxzəngin və şairanədir. Deyəsən, o, son vaxtlar şer də yazırdı.***

- Atam yaradıcılığa da elə şerlə başlayıb. Sizə deyim ki, onun adi danışığı, çıxışı da çox şirin idi. Elə bil ki, içində günəş var idi. Onun istisi sözünə, şəfəqləri də üz-gözünə süzülmüş- dü. Lentlərdə yaşayan səsinə, danışığına indi qulaq asanda ürəyim bir tikə olur. Bu da Allah vergisi idi. Yetimçiliklə, min bir əziyyətlə zirvəyə yetişəsən, mən bunun səbəbihi ulu Tanrıda görürəm.

- ***Deyəsən, atanızın şerlərinə mahnı da yazmısınız?***

- Bəli, 70 illiyində yazmışdım. Zeynəb Xanlarova ifa etdi. Dünyasını dəyişəndən sonra da onun sözlərinə mahnılar bəstələmişəm. Bu mahnıları gözəl müğənnilərimizdən Elmira Rəhimova, Akif islamzadə, Azər Zeynalov

səsləndirdilər. Mənə hərdən elə gəlirdi ki, atamda çox böyük musiqiçilik istedadı var idi. Nədansə, hansı səbəbdənsə o, bunu büruzə vermədi.

***Müsahibəni apardı: Flora XƏLİLZADƏ***